# VİRTUAL MÜHİTDƏ KİTABXANALARIN KOMPLEKTLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

**XƏLƏFOVA SEVDA ABASQULU QIZI**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası, dosent*

***Virtual mühitdə kitabxanaların komplektləşdirilməsi problemləri***
***Xülasə:****Məqalə "Universitetdaxili 50+50 qrant proqramı" çərçivəsində işlənmişdir.Məqalədə virtual mühitdə kitabxanaların elektron resurslarla komplektləşməsi işinin təşkilindən, elektron sənədlərlə komplektləşdirmənin əsas xüsusiyyətlərindən, komplektləşmədə seçmə probleminin əhəmiyyətindən bəhs edilir. Həmçinin kitabxana fondlarının elektron resurslarla komplektləşmə mənbələri haqqında məlumat verilir.*

***Проблемы комплектования библиотекв виртуальной среде***
***Резюме:*** В статье рассказывается об организация работы комплектования библиотек с электронными ресурсами в виртуальной среде, об основных особенностях комплектования с электронными документами, о значении проблемы отбора в комплектовании. А также дается информация об источниках комплектования библиотечных фондов с электронными ресурсами.

***Problems of completing libraries in a virtual environment***
***Summary:*** The article describes the organization of the acquisition of libraries with electronic resources in a virtual environment, the main features of integration with electronic documents, the importance of the problem of selection in acquisition. And also provides information about the sources of acquisition of library funds with electronic resources.

***Açar sözlər:*** virtual mühit, kitabxana fondları, komplektləşdirmənin xüsusiyyətləri, elektron resurslar, seçmə üsulu, komplektləşdirmə mənbələri
**Ключевые слова:**виртуальная среда, библиотечные фонды, особенности комплектования, электронные ресурсы,проблемыотбора, источники комплектования
**Keywords:**virtual environment, library funds, features of acquisition, electronic resources, selection problems, sources of acquisition

Kitabxanaların müasir inkişafı və onların funksiyalarının genişlənməsi istifadəçilərə təqdim olunan resursların tərkibindən və xidmət növlərindən asılıdır. İnformasiya texnologiyalarının aktiv tətbiqi kitabxana fəaliyyətinin bütün sferalarında əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Kitabxana resurslarının tərkibi və ya istifadə hüququ verilən şəbəkə elektron resurslarının siyahısı komplektləşmə prosesində formalaşır.

Kitabxana fondlarının ənənəvi komplektləşdirilməsində ədəbiyyatın alınması əvvəlcədən planlaşdırılır. Belə halda komplektləşdirmə mənbələri kitabxana kollektoru, əlaqədar kitab mağazaları, dövri nəşrlərin əlaqədar abunə agentliyi və məlum olmayan ayrı-ayrı şəxslərin və təşkilatların müəyyən kitabxanaya verdiyi kitab hədiyyələridir. Virtual mühitdə isə kitabxana fondlarının

elektron nəşrlər, elektron sənədlər və digər bu kimi elektron resurslarla komplektləşdirilməsi mənbələri və üsulları *xeyli* fərqlidir.

Elektron mühitin sənəd massivinin formalaşması proseslərinə təsiri komplektləşdirmənin funksiya və texnologiyalarının qismən dəyişməsində özünü göstərir. Fondların formalaşmasının müasir şərtlərinin öyrənilməsi terminoloji sistemin qeyri-mükəmməlliyini ortaya çıxardı. Komplektləşdirmənin obyekt və subyektləri, təmin olunması texnologiyaları üçün birmənalı anlayışların olmaması normativ sənədlərin (standartların) hazırlanmasını tələb edir.

Komplektləşdirmə – kitabxananın vəzifəsi, tipi, profili və oxucuların maraq və sorğularına uyğun olaraq fondun çap əsərləri və digər sənədlərlə planlı və müntəzəm surətdə tamamlanması, eyni zamanda öz aktuallığını itirmiş materiallardan təmizlənməsi deməkdir.

Virtual mühitdə "Komplektləşdirmə" anlayışı isə nəinki fonda daxil edilən obyektlərə, eləcə də uzaq məsafədə olan elektron resurslara da şamil edilir. Elektron mühitdə yeni komplektləşdirmə obyektlərinin və sənəd əldə etmə üsullarının meydana çıxması komplektləşdirmə prosesi haqqında ənənəvi təsəvvürləri genişləndirdi. Kitabxana tərəfindən istifadəçilərə təqdim olunmaq üçün sənədlərin pulla, mübadilə yolu ilə və ya hədiyyə olaraq alınması sənədlərin mülkiyyətə götürülməsi və elektron sənədlərə giriş hüququnun alınması kimi yollarla həyata keçirilir.

Onlayn şəbəkə sənədləri dedikdə, kitabxananın informasiya-kommunikasiya şəbəkələri vasitəsilə informasiya istehsalçılarından müqavilə, saziş və ya lisenziyalı razılaşma yolu ilə aldığı elektron sənədlər başa düşülür. Yəni kitabxananın giriş hüququ əldə etdiyi elektron sənədlər fondun tərkibində müvəqqəti saxlanc vahidi kimi qəbul edilir. Faktiki olaraq kitabxana sənədlərin özünə sahib olmur, sadəcə, sənədlərlə xidmət etmək hüququ əldə edir.

Kitabxanaşünasların fikrincə, uzaq məsafədəki elektron sənədlərin fonda aid olması məsələsi hələ də mübahisəlidir. Burada əsas ziddiyyət əsas fond və xarici resurslar üçün müxtəlif qorunma və istifadə üsullarındadır. Kitabxana lisenziyalı elektron sənədləri sahiblik hüququnda əldə edir. Açıq girişi olan elektron sənədlərdən istifadə müqavilə öhdəlikləri ilə tənzimlənmir və onlar birtərəfli qaydada sahibi tərəfindən təqdim olunur. Y.N.Stolyarov uzaq məsafədəki sənədlər üçün "müvəqqəti fond" anlayışını təklif edir. Sənədin mənsubluğu əsasında kitabxana daimi və müvəqqəti fondlara bölünür. Müvəqqəti fond dedikdə, ümumi istifadə üçün nəzərdə tutulan uzaq məsafədəki sənədlərin müəyyən qaydaya əsasən toplanması nəzərdə tutulur. Daimi fondda isə kitabxananın mülkiyyətində olan və ictimai istifadə üçün nəzərdə tutulan sənədlər qorunub saxlanılır. Daimi fond istənilən daşıyıcıda olan sənədləri, o cümlədən lokal girişi olan və daşına bilən elektron sənədləri ehtiva edir. Müvəqqəti fondun ayrılması xarici resursların saxlayıcısı kimi onun xüsusiyyətlərini və statusunu müəyyənləşdirməyə imkan verəcək. Açıq girişi olan və hər hansı kitabxananın mülkiyyətində olmayan sənədlərin statusu məsələsi isə hələ də həll olunmamış qalır.



Elektron sənədlərin komplektləşdirilməsinin xüsusiyyətlərini aşağıdakı əlamətlərə görə qruplaşdırmaq olar:

- kitabxanaların mülkiyyətində (lokal girişli və ya daşıyıcılarda) olan sənədlər;
- uzaq məsafədəki xarici sənədlər;
- istifadə hüququ əldə olunanlar (lisenziyalı resurslar);
- açıq istifadə üçün yerləşdirilənlər.

Elektron sənədlərin və digər əlaqədar resursların (məsələn, biblioqrafik məlumat bazaları, elektron kataloqlar, veb-saytlar və s.) əsas komplektləşdirmə mənbəyi internet resurslarıdır. Bu texnologiyadan istifadə etdikdə, tez-tez yeniləşdirilən, əlavələr edilən və pulsuz yayılan elektron sənəd növlərinin komplektləşdirilməsi əlverişli deyil. Belə halda əlaqədar elektron sənəd növünün və massivinin vaxtaşırı aktuallaşdırılmasını həmin resursu istehsal etmiş qurumun öz üzərinə qoymaq, resursa dair biblioqrafik və ünvan məlumatlarını isə ya kitabxananın məxsusi elektron kataloquna, ya da xüsusi registrinə (istifadə üçün tövsiyə olunan informasiya resurslarının siyahısı) daxil etmək daha məqsədəuyğundur.

İnternetdə olan pullu informasiya resurslarından kitabxana fondlarının komplektləşdirilməsinin hazırda istifadə edilən ən kütləvi üsulu istifadə üçün lisenziyanın (pul ödəmə əsasında bağlanan müqavilə) alınması, istifadə ediləcək elektron sənədlərin biblioqrafik yazılarının tərtibi və internet şəbəkəsi vasitəsilə kitabxananın oxucularına təqdim olunmasıdır. Bu üsul xeyli maliyyə və əmək sərfi tələb edir. Çünki bu prosesdə bir sıra hüquqi və təcrübi məsələlər zaman etibarilə təkmilləşdirilməlidir. Bununla komplektləşdirilən elektron materiallar fiziki olaraq sahibkarın, yəni informasiya təchizatçısının ixtiyarında qalır, kitabxanalar isə alınmış lisenziyanın şərtlərindən asılı olaraq onlardan müvəqqəti və ya daimi istifadə hüququna malik olur.

İstər ənənəvi kitabxanaların, istərsə də virtual məkanda elektron kitabxana fondlarının komplektləşdirilməsinin vacib problemlərindən biri əlaqədar kitabxananın profilinə uyğun olan yüksək keyfiyyətli sənədlərin seçilməsidir. Bəzi mütəxəssislər qeyd edir ki, elektron sənədlərin komplektləşdirilməsində seçmə üsulunun istifadəsi qismən lazımdır. Bu üsul ancaq optik disklərdə buraxılan nəşrlər üçün tətbiq edilməlidir; digər uzaqlaşdırılmış elektron informasiya resurslarının komplektləşdirilməsində isə seçmə aparmaq gərəksizdir. Çünki həmin resursların tərkibi və məzmunu tez-tez dəyişir və aktuallaşdırılır, yeniləşdirilir, əlavə edilir və s.

Digər qrup mütəxəssislər isə komplektləşdirmə üçün çap əsərlərində olduğu kimi, elektron nəşrlərin və sənədlərin seçilməsini vacib hesab edirlər. Onların arqumentləri aşağıdakı fikirlərlə əsaslandırılır:

1. Müraciət (axtarış, istifadə) üçün çoxlu sayda elektron informasiyalar təqdim olunur, onların adları və sayı sürətlə artır. Buna görə də seçmədə səhvlərin olması ehtimalı artır.

2. Uzaqlaşdırılmış şəbəkə resursları getdikcə daha çox ikinci növ sənədlərlə təqdim olunur. Məsələn, referatlar, annotasiyalar, tezislər və s. Təcrübələr göstərir ki, referatların çox hissəsi əsasında ilkin nəşrin (orijinalların) məzmun keyfiyyətini dəqiq müəyyən etmək çətindir.

3. Sürətlə artan elektron resurslar tam şəkildə elektron variantda dərc edilir. Onlar üçün referatlaşdırma metodları və mexanizmi işlənməmişdir.

Deyilən səbəblərə görə elektron kitabxanalara açıq web-saytların kəmiyyətini deyil, seçmə yolu ilə onların komplektləşdirmə keyfiyyətini artırmağa çalışırlar. Elektron informasiyaların komplektləşdirmə mənbələrinin seçilməsində peşəkar kitabxanaçının aparıcı rolunu əvəz edən başqa bir vasitə yoxdur. Qeyd edək ki, kitabxanaçının vacib funksiyalarından biri təkcə komplektləşdirmə prosesində deyil, həmçinin sənədlərin təkrar komplektləşdirilməsində, ədəbiyyatın fonddan çıxarılmasında və depozitar fondun təşkilində seçmə aparmaqdır.

Elektron sənədlərin komplektləşdirilməsi ümumi komplektləşdirmə prosesinin tərkib hissəsidir. Xarici elektron resursların seçimi zamanı əsas tələblər onların əlçatarlığı, xidmətin ödəniş xərclərinin effektivliyi və kontentin unikallığındadır. Seçim zamanı aşağıdakıların qiymətləndirilməsi vacibdir:

– texniki (administrativ) funksiyalar;
– lisenziya şərtləri;
– resursun məzmun xarakteristikalarına görə keyfiyyəti;
– resursun funksional xarakteristika üzrə keyfiyyəti;
– istifadə şərtləri (kitabxanada, istifadəçinin iş yerində);
– resursa olan tələbat (statistik göstəricilər).

Xarici elektron resurslarla kitabxana fondlarının komplektləşdirilməsi zamanı əsasəna) pulsuz, yəni hamı üçün açıq olan şəbəkə resurslarından; b)portativ informasiya daşıyıcılarından; c) pullu şəbəkə resurslarından istifadə olunur. Kitabxana pulsuz şəbəkə resurslarından istifadə etməklə öz fondunu komplektləşdirərsə, yəni hazır biblioqrafik məlumat bazasını öz elektron fondunda - məxsusi serverində (elektron saxlayıcısında) mühafizə etmək istəyirsə, sənəd sahibindən təqribi razılıq almalı, onun saytında heç bir pul ödəmədən sadəcə olaraq qeydiyyatdan keçməlidir. Fondun portativ informasiya daşıyıcılarında olan kitab, jurnal və digər növ sənədlərlə komplektləşdirilməsi kağız sənədlərdə olduğu kimidir. Kitabxanaların pullu şəbəkə resursları ilə komplektləşdirilməsində isə lisenziyalaşdırma üsulundan istifadə edilir. Lisenziya müqaviləsi informasiya təchizatçısı, sahibi ilə onun tələbatçısının əlaqələndirilməsidir. Lisenziya ilə elektron informasiyanın istifadəsinə müxtəlif şərtlər və məhdudiyyətlər qoyulur (məsələn, istifadə yeri, istifadəçi yerinin miqdarı, istifadənin yoxlanması, arxivləşdirmə (ehtiyat surətin yaradılması), arxiv materiallarına müraciət və s.